***❑ Son illərdə ölkəmizin hərtərəfli inkişafında əldə olunmuş yüksək dinamikaya uyğun olaraq, paytaxtın mərkəzi hissəsində yerləşən Nəsimi rayonunda da istehsalın artımında, quruculuq-abadlıq işlərinin genişlənməsində, önəmli sosial layihələrin sürətlə gerçəkləşdirilməsində diqqətəlayiq uğurlar qazanılmışdır. Keçən ili bütün sahələrdə ciddi nailiyyətlərlə yola salmış nəsimililər ilin birinci rübünün sosial-iqtisadi göstəricilərini də kəmiyyət və keyfiyyət baxımından yaxşılaşdırmışlar.***

# Nəsimi rayonu yüksək inkişaf, hərtərəfli yeniləşmə yollarında

Prezident İlham Əliyevin Bakı şəhərinin problemlərinin həllini sürətləndirmək, paytaxtın ümumi gözəlliyini və rahatlığını daha da artırmaq yönündə gerçəkləşdirdiyi layihələr, dövlət proqramlarında



nəzərdə tutulan məqsədyönlü quruculuq-abadlıq tədbirlərinin ardıcıl yerinə yetirilməsi, daxili imkan və ehtiyatların kifayət qədər hərəkətə gətirilməsi Nəsimi rayonunda sürətli inkişaf və genişmiqyaslı yeniləşməni təmin etmişdir.

Əvvəlki illərdə olduğu kimi, bu il də dövlət başçısı rayonda həyata keçirilən irimiqyaslı quruculuq-abadlıq işlərinə, hərtərəfli yeniləşmə layihələrinə diqqət və qayğısını davam etdirmişdir. Fevralın 10-da Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin inzibati binasında və Bakı Dəmir Yolu Vağzalında aparılan əsaslı yenidənqurma işləri ilə tanış olmuşlar.

Hər iki layihə paytaxtın mərkəzi hissəsinin daha da gözəlləşməsi və ətraf ərazi də daxil olmaqla abadlaşması, dəmiryolçular, sakinlər və qonaqlar üçün ən müasir rahatlıq yaradılması işinə növbəti samballı töhfə olmuşdur. Bakının son illərdə beynəlxalq məclislər mərkəzinə çevrilməsi kimi tarixi bir prosesi nəzərə alsaq, paytaxtın giriş qapılarından sayılan dəmir yolu vağzalının müasirləşdirilməsini və sahənin idarə olunmasını yeni səviyyəyə qaldıran bu yenidənqurma işlərinin önəmi bir daha aydın olar.

**Paytaxtın, eləcə də Nəsimi rayonunun inkişafına göstərilən daimi himayənin nəticəsidir ki, ilin əvvəlindən rayonun sosial-iqtisadi həyatını əks etdirən makroiqtisadi göstəricilər əvvəlki ilin müvafiq dövründəkindən xeyli üstün olmuşdur. Bunu konkret fakt və rəqəmlər də aydın göstərir.**

**Sənaye.** Birinci rübdə ev təsərrüfatlarında sənaye məhsulu istehsalı ilə məşğul olanların, habelə hüquqi şəxs yaratmadan fiziki şəxs kimi fəaliyyət göstərənlərin işi də nəzərə alınmaqla, 140 milyon 824 min manatlıq sənaye məhsulu istehsal edilmişdir. Sənaye istehsalının 17 faizi məhsulun, 83 faizi isə sənaye xarakterli xidmətlərin payına düşmüşdür.

Dövlət sektorunda 60 milyon 677 min manatlıq və ya ümumi istehsalın 43 faizi qədər, qeyri-dövlət sektorunda isə 80 milyon 147 min manatlıq və ya ümumi istehsalın 57 faizi səviyyəsində məhsul istehsal edilmiş və xidmətlər göstərilmişdir. İstehlakçılara 140 milyon 544 min manatlıq və ya bütün sənaye istehsalının 99,8 faizi qədər məhsul göndərilmişdir. Rayonda mühüm növ qida məhsulları özəl müəssisələrdə istehsal edilmişdir.

**Nəqliyyat.** Yanvar--mart aylarında nəqliyyat sektorunda fəaliyyət göstərən müəssisələr, ümumilikdə, 83 milyon 941 min manatlıq xidmətlər göstərmişdir ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 4,9 faiz çoxdur.

**İnformasiya və rabitə.** İlin əvvəlindən bu sahənin rayondakı qurumları müəssisə və təşkilatlara, əhaliyə 77 milyon 992 min manatlıq və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 5,2 dəfə çox rabitə xidməti göstərmişdir. Xidmətlərin 94 faizi qeyri-dövlət müəssisələrinin payına düşür.

**Tikinti.** Bu dövrdə rayonun tikinti kompleksində iqtisadi və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələri hesabına 137 milyon 523,2 min manat məbləğində investisiyadan istifadə edilmişdir, bu da keçən ilin müvafiq dövrünə nisbətən 105 faiz təşkil etmişdir. İstifadə edilmiş vəsaitin 136 milyon 109,1 min manatı tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə xərclənmişdir ki, bu da keçən ilin müvafiq dövrünə nisbətən 4 faiz çoxdur.

Qeyri-dövlət mülkiyyətinə məxsus müəssisə və təşkilatlar əsas kapitala 134 milyon 879,2 min manat (98 faiz), dövlət mülkiyyətinə məxsus müəssisə və təşkilatlar isə 2 milyon 644 min manat (2 faiz) sərmayə yönəltmişlər. Podrat təşkilatlarının gördükləri işin həcmi 133 milyon 659,1 min manat və ya əvvəlki ilin müvafiq dövrünə nisbətən 4,1 faiz artmışdır.

**Ticarət.** Pərakəndə ticarət şəbəkəsində əhaliyə 249 milyon 600,7 min manat məbləğində və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 15 faiz çox istehlak malları satılmışdır. Əmtəə dövriyyəsinin 99,9 faizi özəl sektorun müəssisələrinin payına düşmüşdür.

**Xidmət.** Xidmət müəssisələri əhaliyə 120 milyon 560 min manatlıq, yaxud ötən ilin müvafiq dövrünün səviyyəsindən 31,3 faiz çox ödənişli xidmət göstərmişdir. Ümumi həcmin 78,3 faizi hüquqi şəxslərin müəssisələrində əldə edilmiş və əhaliyə 94 milyon 398,4 min manatlıq pullu xidmətlər göstərilmişdir.

Pullu xidmətlərin 7 faizi dövlət müəssisələrinin payına düşür. Özəl sektorun müəssisələri əhaliyə 114 milyon 352,5 milyon manatlıq pullu xidmətlər göstərmişdir. Bunun 7,8 faizini məişət xidmətləri təşkil etmiş və 9,2 faizi sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxslərin müəssisələrində reallaşmışdır.

**Əhali, əmək haqqı.** 2017-ci il aprelin 1-nə rayonun əhalisi 219,6 min nəfər olmuşdur. İqtisadi və sosial sahələrdə muzdla işləyənlərin orta sayı 147 min 678 nəfər, orta aylıq əmək haqqı isə keçən ilin birinci rübü ilə müqayisədə 12,2 faiz artaraq 578 manat olmuşdur. İlin əvvəlindən 953 yeni iş yerləri açılmışdır. Onların hamısı daimidir. "Ərazi məşğulluq proqramı"na əsasən, 128 nəfərə işsizlik müavinəti verilməsi proqnozlaşdırılmış, 501 nəfərə müavinət verilmişdir.

Rayon Mənzil Kommunal Təsərrüfatı Birliyində 272, çoxmənzilli binaların təmiri ilə bağlı 259 nəfər işə götürülmüşdür. Məşğulluq Mərkəzi vasitəsilə münasib işlə təmin olunanların 415, peşə hazırlığı kurslarına cəlb olunanların 19 nəfəri qadınlar olmuşlar. 229 nəfər qadına isə işsizliyə görə müavinət təyin edilmişdir. İşə götürülənlərin 60 faizi, peşə kurslarına cəlb olunanların 70 faizi, işsizlik müavinəti alanların isə 25 faizi gənclər olmuşdur. Mərkəz 7 nəfər qaçqın və məcburi köçkünü münasib işlə təmin etmiş, 3 nəfərə işsizliyə görə müavinət ödəmiş, 3 nəfər isə peşə təlimi kurslarına cəlb etmişdir.



Sağlam biznes mühitinin formalaşdırılması, investisiyaların cəlb edilməsi, kiçik və orta sahibkarlığın inkişafı və əhalinin işgüzarlıq fəaliyyətinin artırılması üçün münbit şəraitin yaradılması, yerli infrastruktur layihələrin icra olunması, yeni istehsal və emal müəssisələrinin açılması, məşğulluq səviyyəsinin artırılması və əhalinin maddi rifahının yüksəldilməsi ilə bağlı verilmiş tapşırıqların icrasının qısa müddətdə təmin edilməsi məsələləri RİH Başçısı yanında Şuranın geniş iclaslarında müzakirə olunmuş, RİHB Aparatı, Sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklər, ikili tabelikdə olan yerli strukturlar, müəssisə və təşkilatların rəhbərlərinin üzərinə düşən vəzifələr müəyyənləşdirilmişdir.

Ölkədə sahibkarlığın inkişaf etdirilməsi, əhalinin məşğulluq səviyyəsinin artırılması, iş yerlərinin açılması, sərmayələrin cəlb edilməsi ilə bağlı tapşırıqların təmin edilməsi məqsədi ilə Nəsimi Rayon İcra Hakimiyyətində xüsusi qərargah yaradılmışdır. Logistika mərkəzinin – Yaşıl marketin gələcəkdə tam gücü ilə işləməsi üçün 1000 nəfərdən çox adamın işə cəlb olunması nəzərdə tutulur.

Prezident İlham Əliyevin göstərişinə əsasən, yararsız və ya qəzalı vəziyyətdə olan binalarda yaşayan sakinlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, Nazirlər Kabinetinin mövcud şəhərsalma normalarına cavab verməyən, şəhərin ümumu görünüşünə xələl gətirən yaşayış binalarının, sosial və digər qeyri-yaşayış obyektlərinin sökülərək yenidən qurulması, yeni yaşayış binalarının inşa edilməsi, əlavə iş yerlərinin açılması ilə bağlı qərarının yerinə yetirilməsi istiqamətində də Nəsimi RİH məqsədyönlü işlər aparır.

Tikiləcək binaların yerləşdirilməsinin ərazi planlaşdırılması sənədlərinin uyğunluğunun və hazırlanan layihələrin memarlıq hissələri Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə razılaşdırılır. 30-dan çox təklif müzakirə edilmiş, müəyyən edilmiş ünvanlar üzrə 17 layihə razılaşdırılmış, 3 layihə üzrə ərazilər boşaldılaraq söküntü işlərinə başlanılmışdır.

Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın sədrliyi ilə Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkünlərə həsr olunmuş müşavirədə verilmiş tapşırıqların icrası ilə bağlı Nəsimi rayonu üzrə nəzərdə tutulan işlərə dair müşavirə keçirilmiş, məcburi köçkünlərin məşğulluğunun təmin edilməsi ilə bağlı ardıcıl tədbirlərin görülməsi istiqamətində aidiyyəti üzrə tapşırıqlar verilmişdir. Nəsimi RİH-in təşəbbüsü ilə rayonun ən böyük müəssisələrindən biri olan "Bakı Tikiş Evi" SC-də məcburi köçkünlərin işlə təmin olunması üçün yeni iş yerlərinin açılması istiqamətində müəyyən işlər görülür. Hazırda müəssisədə 150-yə yaxın məcburi köçkün işlə təmin olunmuşdur. Gələcəkdə də yeni iş yerlərinin açılması istiqamətində işlər davam etdirilir.

**Rayon İH Başçısının 1 Saylı İnzibati Dairəsi** ərazisində ilin əvvəlindən abadlıq-quruculuq işləri davam etdirilmişdir. Hüseyn Seyidzadə küçəsi 1, 2a, 3 və 16b saylı binaların və Cavadxan küçəsi 62 saylı binanın fasadları rənglənmişdir. Rəşid Məmmədov küçəsi 15 və 17 saylı binalar təmir olunmuş və həyətində "Abad həyət" layihəsi çərçivəsində işlər görülmüşdür. Burada sakinlərin istirahəti üçün söhbətgah və azyaşlıların əyləncəsi üçün 3 oyun elementi quraşdırılmışdır. Həyətə 40 ədəddən yuxarı şam və küknar ağacları əkilmişdir. Əraziyə 200 kvadratmetrdən çox asfalt örtüyü çəkilmiş, "Abad həyət" sakinlərin ixtiyarına verilmişdir.

Cavadxan küçəsi 70 və 72 saylı binaların həyəti, Seyidzadə küçəsi 5 saylı binanın arxası, Əliisgəndər İsgəndərov küçəsi 1, 3, 7 saylı binaların həyətləri, III mikrorayonda H.B.Əliyev küçəsi 4, 36, 42, 46 saylı binaların ətrafı qanunsuz çəpərləmələrdən təmizlənmişdir. 156 saylı bağçanın həyəti də təmizlənmişdir. I mikrorayon ərazisində yerləşən köhnə parkın təmirinə başlanılmışdır. Parkda ahıl insanların istirahəti üçün köşk tikilmişdir. Azyaşlı uşaqların istirahəti üçün müxtəlif oyun elementləri quraşdırılmışdır. Parkın ərazisinə səki daşları döşənməyə başlanmışdır.



IV mikrorayon M.Cəlal küçəsi 40 ünvanda yerləşən "Qərənfil" uşaq bağçasının əsaslı təmirinə başlanılmışdır. Uşaqların oynaması üçün ərazilər hazırlanır. Digər əraziyə qazon döşənir və gül kolları əkilir. Uşaq bağçasının fasadı və daxili otaqları təmir olunur.

**2 Saylı İnzibati Dairəsi** ərazisində də abadlıq- təmir işləri uğurla davam etdirilir. Nümayəndəlik



3 ay ərzində əraziyə xidmət göstərən 13, 14, 16, 52 və 59 saylı Mənzil Kommunal İstismar sahələri ilə sıx əlaqədə fəaliyyət göstərmiş, bir sıra abadlıq və yenidənqurma işləri ilə bərabər, həlli vacib olan məsələlərə də xüsusi fikir verilmişdir.

Səməd Vurğun küçəsi 941-ci məhəllədə, Azadlıq prospekti ilə Bakıxanov küçələrinin kəsişmələrində Taras Şevçenkonun abidəsi olan parkda, Sevil Qazıyeva adına parkda, Həsən Əliyev küçəsi ilə S.Vurğun küçəsinin kəsişməsindəki parkda təmizlik işləri aparılmışdır. Mərdanov qardaşları küçəsi 96a saylı binanın zirzəmisi təmizlənmiş, köhnə kanalizasiya xəttləri yenisi ilə əvəz olunmuşdur. Həsən Əliyev küçəsi 17 ünvanında TQDK-nın köhnə binasının yerində yeni binanın tikintisi davam etdirilir. M.Qaşqay küçəsi 16 ünvanında təmir işləri görülmüş, bina tam yararlı hala salınmışdır. M.Qaşqay və S.Zeynalov küçələrinin kəsişməsində 40 kvadratmetr, E.Tağızadə küçəsində isə 55 kvadratmetr asfalt örtüyü vurulmuşdur.

**3 Saylı İnzibati Dairənin** ərazisində də abadlıq-quruculuq işləri eyni diqqət və qayğı ilə davam etdirilir. Ş.Əzizbəyov küçəsi 154, 159, 170, 172, döngə 1; S.Əsgərova küçəsi 168, 180, 182; Vidadi küçəsi 175, 179, 181, 189; D.Əliyeva küçəsi 243, 243a; 28 May küçəsi 14, 29, 56; S.Rəhimov küçəsi 197, 203; Ə.Quliyev küçəsi 133; Füzuli küçəsi 79; K.Səfərəliyeva küçəsi 26 və Azadlıq prospektində su xəttləri təmir edilmişdir. 28 May küçəsi 52, 54, 56, 58, 60, 62; Nizami küçəsi 100, 102, 103, 104, 105, 107, 117, 119, 131, 135, 137; Xaqani küçəsi 65; F.Əmirov küçəsi 10; Zorge küçəsi 13 saylı binalarda "Bakı Abadlıq" müəssisəsi əsaslı təmir işləri aparır. "Azəravtoyol" K.Səfərəliyeva küçəsi 23, 25 saylı ünvanlarda bardürləri dəyişdirmişdir, hazırda asfalt örtüyü vurulur. Bir sıra küçələrdə binaların fasadları rənglənmişdir.

**Ümumiyyətlə, hər 3 dairə ərazisində xidmət təşkilatları və digər podrat qurumları çoxsaylı yenidənqurma, təmir-tikinti, abadlıq, təmizlik və yaşıllaşdırma işləri aparmışdır. Əhalinin su, elektrik enerjisi, qaz və istilik təchizatı daim nəzarətdə saxlanılmış, qəzalar dərhal aradan qaldırılmış, xidmətin səviyyəsi yüksəldilmişdir. Ərazidəki təhsil, səhiyyə, mədəniyyət və digər humanitar sahə müəssisələrinin ahəngdar fəaliyyəti təmin edilmiş, hər sahədə səmərəli iş qurulmasına kömək göstərilmişdir.**

Ölkə başçısının müvafiq tapşırığına uyğun olaraq, 2017-ci il fevral ayının 15-dən respublikamızın bütün bölgələrində olduğu kimi, əhalinin tibbi müayinədən keçirilməsi tədbirlərinin həyata keçirilməsinə başlanmış və hazırda uğurla davam etməkdədir. Bugünədək rayonda 45 mindən artıq sakin pulsuz tibbi müayinədən keçmişdir.

20 Yanvar və Xocalı faciələrinin anım günləri, 31 Mart Azərbaycanlıların Soyqırımı Günü, Aprel döyüşlərinin ildönümü rayonun bütün kollektivlərində qeyd edilmiş, çoxsaylı vətənpərvərlik tədbirləri təşkil olunmuşdur. Yeni il və Novruz bayramları münasibətilə silsilə və kütləvi şənliklər keçirilmişdir. Peşə bayramları, təqvimin əlamətdar günləri də təntənə ilə qarşılanmış, ayrı-ayrı sahələrdə fərqlənənlər mükafatlandırılmışlar. Nəsimililər cəbhə xətindəki hərbi hissəyə hamiliyi davam etdirmişlər. Sağlam həyat tərzi, əhalinin asudə vaxtının səmərəli təşkili, gənclərin problemləri ilə bağlı bir sıra görüş və müzakirələr də keçirilmişdir. Nəsimi məktəbliləri "Ölkəmizi tanıyaq" tur-aksiyasında fəal iştirak etmişlər.

ABŞ-ın Kaliforniya ştatının Los Anceles və San Dieqo şəhərləri ilə dostluq əlaqəsi davam etdirilmiş, hər iki ölkədə müxtəlif tədbirlər, görüşlər keçirilmişdir.

"İslam həmrəyliyi" ili və İslam Oyunları ilə bağlı rayonda müxtəlif tədbirlər keçirilmiş, lazımi hazırlıq işləri davam etdirilir.

**Nəsimi Rayon İcra Hakimiyyəti Prezident İlham Əliyevin ölkənin icra qurumları və rəhbər şəxsləri qarşısında qoyduğu vəzifələrin təxirəsalınmadan yerinə yetirilməsini, ölkə başçısının mühüm tarşırıq və göstərişlərinin, dövlət proqramları və irimiqyaslı layihələrlə bağlı bütün məsələlərin həyata keçirilməsini ardıcıl təmin edir. Bütün bunların nəticəsidir ki, 2017-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafında növbəti irəliləyişə nail olunmuşdur.**







***Nəsimi Rayon İcra Hakimiyyətinin rüblük hesabatı əsasında hazırladı:***

*Tahir AYDINOĞLU, "Xalq qəzeti"*